"Xalq qəzeti"– 104

# "Ad günü"müz – şad günümüz




**Ulu öndər Heydər Əliyev həmişə tövsiyə edirdi ki, hansı sahədə olursa olsun, zəhmət çəkən insanların qədri bilinməli, onlar ruhlandırılmalı, ən kiçik fəaliyyət belə qiymətləndirilməlidir. Ümummilli liderin fikrincə, bu, təkcə ədalət prinsipi kimi deyil, həm də sabahkı fəaliyyətimizə yaradılan stimul kimi qəbul edilməlidir. Nə xoşdur ki, bugünkü Azərbaycanın hər addımında həmin tövsiyənin həyata keçirilməsinin şahidinə çevrilirik.**

Avqustun 29-da – "Xalq qəzeti" nin (26 avqust 1991-ci ilədək "Kommunist") ilk nömrəsinin nəşr edilməsinin 104-cü ildönümü günündə "Xalq qəzeti" redaksiyasında keçirilən məclisdə də qədirbilənlik və yaradıcı fəaliyyətə həvəsləndirmənin şahidi olduq. Qəzetin baş redaktoru, Əməkdar jurnalist Əflatun Amaşov "Xalq qəzeti"nin keçdiyi 104 illik yolun başdan-başa Azərbaycan xalqına xidmətlə sıx bağlı olduğunu söylədi. Redaksiya rəhbəri qeyd etdi ki, ötən bir əsrdə yaşayıb-yaratmış elə bir ziyalımız yoxdur ki, bu redaksiya ilə əlaqədə olmasın:

– Biz fəxr edirik ki, vaxtilə Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm kimi böyük yaradıcı simaların çalışdığı və ya sıx əməkdaşlıq etdiyi redaksiyanın fəaliyyətini müstəqillik şəraitində davam etdiririk. Bu kollektivin həm İkinci Dünya müharibəsi illərində, həm də dövlət müstəqilliyimiz bərpa ediləndən sonrakı dönəmdə fədakar, mükəmməl fəaliyyəti haqlı iftixarla yanaşı, məsuliyyətimizi də artırır.

2020-ci ilin payızında Prezident İlham Əliyevin qətiyyəti və Azərbaycan Ordusunun hünəri nəticəsində qazandığımız şanlı Zəfər və işğaldan azad edilmiş ərazilərdəki bərpa-quruculuq işləri bizim əsas fəaliyyət istiqamətlərimizdən olub. "Xalq qəzeti" Azərbaycan dövlətinin daxili və xarici siyasətini, diplomatiyamızın uğurlarını daim diqqətdə saxlayır. Biz bu qəzetin tarixi nüfuzunun qorunması, demokratik, xəlqi ənənələrinin davam etdirilməsi istiqamətində təşəbbüskar fəaliyyətimizi davam etdiririk.

Kollektiv üzvləriindən baş redaktorun birinci müavini Hacı Qüdrət Piriyev, şöbə müdirləri Vaqif Bayramov, Əli Nəcəfxanlı, Məsaim Abdullayev, İmran Bədirxanlı, mühasib Zəminə Osmanova tarixi təcrübənin çağdaş çağırışlarla qovuşdurulması yönündə yaradıcı prosesin uğurundan və qarşıdakı önəmli hədəflərdən söz açdılar. Daha sonra xatirələr səsləndi və gələn il qeyd olunacaq 105 illik yubileyi daha ciddi fəaliyyət, zamanın tələbinə uyğun yaradıcılıqla qarşılamaqla bağlı arzu-diləklər dilə gətirildi.

Sonra söhbət çay süfrəsi ətrafında davam etdirildi.

**P.S: Dünən redaksiya ilə əlaqə saxlayıb qəzetimizin "ad günü"nü təbrik edən çoxsaylı oxucularımıza və fəal müəlliflərimizə diqqət və xoş sözlərə görə təşəkkür edirik.**

***İttifaq MƏMMƏDCANOĞLU,***
***"Xalq qəzeti",***
***Foto Elşən AĞALARINDIR***